# Prezident İlham Əliyev:

# “Mövcud olmayan “qurumun” statusu haqqında danışmağın yeri yoxdur”



**Prezident, Ali Baş Komandan İlham Əliyevin düzgün müəyyənləşdirdiyi strategiya və rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Ermənistanın işğalçı siyasəti dayandırıldı və ölkəmizin ərazi bütövlüyü təmin olundu. Vətən müharibəsində qazandığımız tarixi qələbə Azərbaycanı bütövləşdirdi. Bir ildən artıqdır ki, xalqımız şanlı qələbənin sevinci ilə yaşayır.**

> ***Bizim mövqeyimiz müharibə bitəndən sonra dəyişməz olaraq qalır. Biz Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istəyirik. Biz dərhal sərhədlərimizin delimitasiyasına və əlbəttə ki, bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq. Həmçinin biz gələcək sülh sazişi üzərində Ermənistanla işləməyə başlamağa hazır olduğumuzu bildirmişik.***
>
> ***Prezident İlham Əliyevin 2021-ci il oktyabrın 2-də İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibədən***

Dövlət başçımızın müdrikliyi sayəsində Azərbaycan informasiya cəbhəsində də qələbə qazandı. İnformasiya savaşında da ölkəmiz dünya erməni lobbisinin və diasporunun son 100 ildə yaratdığı informasiya cəbhəsini darmadağın etdi. İnformasiya cəbhəsindəki qələbəmiz də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında informasiya cəbhəsindəki uğurlarımızın rolu böyükdür. Vətən müharibəsi zamanı döyüş meydanında olduğu kimi, informasiya cəbhəsində də qələbə qazanmağımızın əsas səbəbkarı Prezident, Ali Baş Komandan İlham Əliyev oldu. Dövlətimizin başçısı Vətən müharibəsi dövründə dünyanın 30-dan çox aparıcı televiziya kanallarına verdiyi müsahibələrdə Ermənistanın işğalçı siyasətdən əl çəkmədiyini və ona havadarlıq edən xarici qüvvələri, erməni vandalizmini kəskin tənqid etdi. İnformasiya müharibəsində vəziyyəti tezliklə ölkəmizin xeyrinə dəyişməyi bacaran Prezident İlham Əliyevin döyüş bölgəsində də qələbə qazanacağına heç bir şübhə qalmadı və dünya ictimaiyyəti bunun şahidi oldu.

Azərbaycanın qazandığı tarixi qələbə Cənubi Qafqazda, yeni reallıqlar yaradıb. Dövlətimizin başçısı mütəmadi olaraq işğaldan azad edilmiş ərazilərə səfərlər edir, həmin yerlərdə aparılan yenidənqurma və bərpa işləri ilə yerində tanış olur, “Böyük qayıdış”ın reallaşdırılması üçün qətiyyətli addımlar atır. Lakin Ermənistan sülh müqaviləsindən yayınır, bu reallıqlarla barışmaq istəmir.

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələrdəki çıxışında, həmçinin Rusiyanın nüfuzlu “Nasionalnaya oborona” jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya, Türkiyənin Anadolu Agentliyinə, Fransanın “France-24” televiziya kanalına və İspaniyanın EFE informasiya agentliyinə müsahibələrində Ermənistanı bir daha ifşa etdi. Dövlət başçımız dedi ki, artıq Cənubi Qafqazda və Qarabağda yeni reallıqlar yaranıb. Ermənistan və beynəlxalq təşkilatlar bu reallıqları qəbul etməlidirlər. Ermənistanın yeganə çıxış yolu sülh müqaviləsi ilə razılaşmasıdır.

Ötən ilin noyabrında ölkəmizdə səfərdə olan və Prezident İlham Əliyevlə görüşündəki bəzi məqamları xatırladan İspaniyanın EFE informasiya agentliyinin əməkdaşı müharibədən sonrakı vəziyyətlə və İlham Əliyevin Ermənistanın baş naziri ilə bir araya gəlməyə hazır olması ilə maraqlandığını bildirdi.

Azərbaycanın həmişə sülh danışıqlarına hazır olduğunu vurğulayan dövlətimizin başçısı artıq danışıqların və temasların başlandığını bildirdi. Qeyd etdi ki, Azərbaycan, Ermənistan və Rusiyanın Baş nazirlərinin müavinləri səviyyəsində əməkdaşlığın formatı mövcuddur və bu format kommunikasiyaların açılması məsələsinə həsr olunub. Həmçinin, bu yaxınlarda BMT Baş Assambleyasının sessiyası çərçivəsində Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşü baş tutub. Bu, müharibə bitəndən sonra birinci dəfə baş vermişdir. Görüş konstruktiv və ümidverici olmuşdur. Azərbaycanın mövqeyinin müharibə bitəndən sonra da dəyişməz olaraq qaldığını diqqətə çatdıran respublikamızın rəhbəri Ermənistanla hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında normal münasibətlər qurmaq istədiyini bildirdi: “Biz dərhal sərhədlərimizin delimitasiyasına və əlbəttə ki, bu proses bitəndən sonra demarkasiyasına başlamağa hazırıq. Həmçinin biz gələcək sülh sazişi üzərində Ermənistanla işləməyə başlamağa hazır olduğumuzu bildirmişik. Bütün bu təşəbbüslər tərəfimdən və digər Azərbaycan rəsmiləri tərəfindən dəfələrlə vurğulanmışdır. Lakin əfsuslar olsun ki, Ermənistan hələ də buna müsbət cavab verməyib. Beləliklə, bizim mövqeyimiz dəyişməz olaraq qalır və bəzi addımlar var, lakin hesab edirəm ki, biz bu il ərzində daha çox irəliləyişə nail ola bilərdik”.

Ancaq Ermənistanda baş qaldıran revanşist qüvvələr və baş nazir Nikol Paşinyanın əleyhdarları sülh müqaviləsinin imzalanmasına mane olur, müxtəlif vasitələrlə müharibəni yenidən başlamaq istəyirlər. Lakin unudurlar ki, güclü və qüdrətli Azərbaycan Ordusu ilə qarşı-qarşıya dayanıblar. Onların təxribatları cavabsız qalmayacaq. Bu gün siyasi və iqtisadi böhran içərisində çapalayan Ermənistanın yeganə çıxış yolu sülh müqaviləsini imzalamaqdır. Prezident İlham Əliyev də müsahibəsində bunu açıq şəkildə bəyan etdi. Dedi ki, Ermənistan tərəfi hazırdırsa, mən də hazıram. Ölkə başçımız, həmçinin Nikol Paşinyanla istənilən zaman danışmağa hazır olduğunu bildirdi. Ermənistanın siyasi isteblişmenti hələ də revanşizm cəhdlərini nümayiş etdirən bəyanatlar səsləndirir, tarixən və beynəlxalq hüquq əsasında Azərbaycana məxsus olan əraziləri təkrar ələ keçirmək üçün gələcək planların qurulmasına cəhdlər edir. Ermənistan bu yoldan əl çəkməlidir. İşğalı dövlət siyasətinin prioritetinə çevirən Ermənistan birdəfəlik yadda saxlamalıdır ki, 30 illik danışıqlar prosesi ərzində Azərbaycanın mövqeyi çox konstruktiv olmuşdur.

Agentliyin əməkdaşının bu məsələ ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev də qəti mövqeyini bildirdi. Dedi ki, Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə verməyə hazır idik. Lakin bu mövqeyi Ermənistan tərəfi həmişə rədd etmişdir və onlar həmişə “Dağlıq Qarabağ” adlandırdıqları ərazi üçün müstəqillik tələb edirdilər. Lakin bu gün, müharibə bitəndən və münaqişə öz həllini tapdıqdan sonra bu, təkcə mənim mövqeyim deyil, bu, dünyanın, beynəlxalq ictimaiyyətin əksər hissəsinin mövqeyidir ki, artıq mövcud olmayan “qurumun” statusu haqqında danışmağın yeri yoxdur. Çünki Dağlıq Qarabağ mövcud deyil. Bizim ərazimizdə belə inzibati vahid yoxdur.

Bu il iyulun 7-də Azərbaycanın iqtisadi zonalarının yeni konfiqurasiyası ilə bağlı imzaladığı fərmanı xatırladan Prezident İlham Əliyev iki iqtisadi zona – Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradıldığını və onların bütün bu ərazini əhatə etdiyini bildirdi: “Bu gün Rusiya sülhməramlılarının məsuliyyət daşıdığı ərazidə – Qarabağda yaşayan 25 minə yaxın etnik erməni bizim vətəndaşlardır. Onların fərqli dini və ya etnik mənşəyi olan istənilən digər Azərbaycan vətəndaşı kimi eyni hüquqları, imtiyazları və öhdəlikləri olacaq. Qısaca desək, status məsələsinə qayıtmaq mümkün deyil, status yoxdur və hər kəs bu məsələni unutmalıdır”.

Agentliyin əməkdaşı hazırda sərhədlərin delimitasiyası, hərbi əsirlər, minalardan təmizləmə kimi məsələlərlə də maraqlandı. Təbii ki, Ermənistan müharibədən sonra təxribatlar törətmək istəyən şəxsləri də müharibə əsirləri hesab edir. Halbuki, beynəlxalq hüququn normalarında və beynəlxalq konvensiyalarda hansı şəxslərin müharibə əsirləri hesab oluna biləcəyi açıq şəkildə qeyd olunur. Beynəlxalq konvensiyalara əsasən, belə şəxslər müharibə zamanı saxlanılmış və ya əsir götürülmüş insanlardır. Respublikamızın rəhbəri vurğuladı ki, müharibə zamanı saxlanılmış bütün şəxslər müharibə başa çatan kimi tərəfimizdən dərhal qaytarılıb. Əslində, biz onları Ermənistan bizim əsirləri qaytarmamış geri vermişik. Ermənistan və bəziləri tərəfindən “müharibə əsirləri” adlandırılan sonra saxlanılmış və artıq həbsdə olanlar bu kateqoriyaya daxil deyillər. Bu adamlar işğaldan azad olunmuş ərazilərə noyabrın sonunda – müharibənin başa çatmasından və Ermənistanın kapitulyasiya aktını imzalamasından iki həftə sonra göndərilənlərdir. Onlar azad etdiyimiz ərazilərdə dekabrın əvvəlində saxlanılıblar. 62 nəfərdən ibarət olan bu şəxslərin bəziləri cinayətlər törədiblər. Onlar hərbçilərimizə hücum edib və dörd nəfəri qətlə yetiriblər. Yəni, bunlar müharibə əsirləri deyil, onlar azərbaycanlı mülki əhaliyə və hərbçilərə hücum etmək məqsədilə göndərilmiş terrorçu və diversiya qrupunun üzvləridir. Buna baxmayaraq, Azərbaycan tərəfi bu müddət ərzində onların bəzilərini geri qaytarıb. Göründüyü kimi, bu, ölkəmiz tərəfindən atılan xoşməramlı addımdır. Ermənistan isə minalanmış ərazilərin xəritələrini hələ də qaytarmaq istəmir. Müharibə bitdiyi bir ilə yaxın dövrdə Ermənistanın xəritələri verməməsi nəticəsində mülki vətəndaş və hərbçilərimiz arasında 150 nəfər həlak olmuş və ya ağır yaralanmışdır. Düzdür, bu yaxınlarda bəzi xəritələr təqdim edilib, lakin həmin xəritələrin dəqiqliyi yalnız 25 faizdir. Baxmayaraq ki, Ermənistan hökuməti ən yüksək səviyyədə bəyan edirdi ki, onlarda belə xəritələr yoxdur, amma bu da növbəti yalandır. Çünki belə xəritələr onlarda var. Həmin xəritələri versələr, əhalinin minalara düşməsinin qarşısı alınar və soydaşlarımızın doğma ocaqlarına vaxtında köçürülməsi tezləşdirilər.

Hazırda bəzi beynəlxalq təşkilatlar hələ də ikili standartlardan əl çəkmir, müxtəlif vasitələrlə Ermənistana yardım etməyi planlaşdırırlar. Halbuki, dağıntılara məruz qalan Azərbaycan əraziləridir. Həmin ərazilərə səfər edən diplomatik korpus nümayəndələri də bunun şahidi olublar. Dövlət başçımız bildirdi ki, Avropa İttifaqı Ermənistan üçün 2,6 milyard avro həcmində iqtisadi yardım paketinin hazırlanması prosesindədir. Bu proses artıq başa çatmış da ola bilər: “ Əlbəttə, bizim gözləntimiz ondan ibarətdir ki, həmin həcmdə məbləğ eyni şərtlərlə Azərbaycana da təklif edilsin. İstər qrant, istərsə də kredit – burada bərabərlik olmalıdır. Çünki işğaldan əziyyət çəkmiş olan ölkə bizik. Bizim 10 min kvadratkilometr sahəyə malik olan, tamamilə dağıdılmış ərazimiz, yüzlərlə şəhər və kəndlərimiz var. Bu səbəbdən biz, əlbəttə ki, həmin iqtisadi yardım paketinin qeyri-balanslı olmasına dair öz narahatlığımızı ifadə etdik. Hazırda biz Avropa İttifaqı ilə təmaslarımızı davam etdiririk və onlardan bizə iqtisadi dəstəklə əlaqədar təklif gözləyirik. Avropa İttifaqı çox iş görə bilər. Biz bu imkanlardan istifadə etməyə hazırıq və Avropa İttifaqına dürüst vasitəçi kimi etibar edirik”.

Prezident müsahibəsində müharibə zamanı Türkiyənin Azərbaycana dəstək verməsindən də danışdı. Dedi ki, Türkiyə lap başlanğıcdan bizə dəstək verdi. Dövlətimizin başçısı müharibənin ilk günlərindən verdiyi siyasi və mənəvi dəstəyə görə Türkiyə hökumətinə minnətdarlığını bildirdi. Qeyd etdi ki, müharibə bitdikdən sonra da Türkiyə, o cümlədən Rusiya gələcək regional inkişafda və sabitlikdə çox mühüm rol oynayırlar. Rusiya atəşkəs üçün vasitəçi kimi çıxış etdi və sülhməramlıları göndərdi. Bu gün Türkiyə və Rusiya Azərbaycanın iki qonşusu kimi, – yeri gəlmişkən, onlardan biri Ermənistanın da qonşusudur, – sabitlik, təhlükəsizlik və gələcək inkişaf sahəsində çox mühüm rol oynayırlar. Bu yaxınlarda iki ölkə prezidentlərinin görüşü böyük maraqla izlənildi. Digər məsələlərlə yanaşı, onlar Ermənistanla Azərbaycan arasında vəziyyəti müzakirə etdilər. Bu, yeni regional əməkdaşlıq düsturunun özəyini təşkil edir. Ermənistan Cənubi Qafqazda yaranmış reallıqlarla barışmalıdır və “3+3” regional əməkdaşlıq platformasına dair Türkiyə Prezidentinin təklifini dəstəkləməlidir. Ancaq hələ ki, Ermənistan cavab verməyib. Bu da həmin ölkənin yenə də qeyri-konstruktiv mövqe sərgilədiyindən xəbər verir. Lakin ölkəmiz bu təklifi tam dəstəkləyir. Çünki bu, nəinki müharibədən sonrakı məsələlərə, eləcə də ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək. Təkcə Azərbaycanın güclü təşviq etdiyi kommunikasiyaların açılması sayəsində biz region ölkələri arasında dərhal ticarət dövriyyəsini artıra, on minlərlə iş yeri aça bilərik. Bu, yalnız kommunikasiyaların açılması sayəsində olacaq. Bununla belə, qarşılıqlı ticarəti gücləndirsək, müsbət dinamikaya diqqət yetirsək, regionumuz gərginlik məkanından sabitlik və sülh regionuna çevriləcək.

Dövlət başçısı Azərbaycanın təbii qaz ehtiyatı ilə əlaqədar sualı da cavablandırıb. Qeyd olunub ki, Azərbaycan ötən ilin sonunda Cənubi Avropa ölkələrinə təbii qazı nəql etməyə başlayıb. Həmin vaxtdan etibarən ixracımızın profili artmaqdadır. Azərbaycan uzun illər, 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısıdır və hər hansı fasilə olmayıb. İndi isə təbii qazın etibarlı təchizatçısı kimi öz rolumuzu oynayırıq. Azərbaycanda təbii qazın təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün ən azı 100 il kifayət edər. Hazırda yeni yataqların kəşf edilməsi mərhələsindəyik. Azərbaycanın neft və qaz sektoruna böyük enerji şirkətləri arasında maraq artır.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***